# ARZULARIN ÇİN OLSUN, MƏZAHİR MÜƏLLİM

## Məzahir SƏMƏDOĞLU: "Belaruslarla bizi birləşdirən mədəni və mənəvi cəhətlər çoxdur"

**İndi dünyanın elə bir nöqtəsi yoxdur ki, orada soydaşlarımız yaşamasın. Etiraf etmək lazımdır ki, Azərbaycandan uzaqlarda yaşayan həmyerlilərimizin heç də hamısı ölkəmizi ondan uzaqlarda ya lazımi səviyyədə təmsil etmir, ya da ki, təmsil edə bilmirlər. Amma sevindirici haldır ki, bu gün Azərbaycandan kənarda yaşasalar da ürəkləri Vətənlə bir döyünən, daim doğma ocağa bağlı olan Vətən övladları da vardır. Belə övladlardan biri də haqqında müxtəsər söhbət açmaq istədiyimiz Məzahir Səmədoğludur.**

Məzahir müəllim uzun illərdir ki, bizə dost olan Belarus Respublikasında yaşayır. Amma onun qəlbi daim Azərbaycanla bir vurur. Yaşadığı ölkədə vətənimizlə bağlı bütün tədbirlərdə fəal iştirak edən Məzahir Səmədoğlunu həmyerlilərimiz də yaxşı tanıyır, ona ehtiram göstərirlər.

Məzahir Yusifovun (Məzahir Səmədoğlunun) uşaqlıq, yeniyetməlik və gənclik illəri Göyçə mahalında, habelə Gədəbəy və Şəmkir rayonlarında keçib. O, orta məktəbi yüksək qiymətlərlə başa vurduqdan sonra ordu sıralarında xidmət etmişdir. Daha sonra Moskva Xalq Təsərrüfatı



İnstitutunun iqtisadiyyat fakültəsində təhsil alan Məzahir müəllim uzun illərdir ki, öz taleyini Belarus Respublikası ilə bağlayıb. Yaşadığı ölkənin milli dəyərlərinə yüksək qiymət verən Məzahir Səmədoğlu həm də xaricdə ölkəmizin diaspor təşkilatının formalaşmasında əlindən gələni əsirgəmir. O, hazırda Belarus-Azərbaycan icmaları Konqresinin təftiş komissiyasının sədridir.

Məzahir Səmədoğlu Yusifov bütün varlığı ilə öz əzəli vətəninə bağlı bir insandır. O, övladlarını da azərbaycançılıq ruhunda böyüdüb. Yusifovlar ailəsi daim vətənin təəssübünü çəkir, Azərbaycan diasporunun formalaşması sahəsində əllərindən gələni əsirgəmirlər. Məzahir müəllimin oğlu Vüqar Yusifov Belarus-Azərbaycan İctimai Konqresinin sədr müavinidir. Məzahir müəllim başda olmaqla bu ailənin bütün üzvləri Belarusla Azərbaycan arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsində əllərindən gələni əsirgəmirlər.

Ötən əsrin sonlarından üzü bəri Belarus Respublikasında yaşayan soydaşlarımız söhbətimizin qəhrəmanını daha çox bir mədəniyyət və mənəviyyat adamı kimi tanıyır. O, həm də bizim ədəbiyyatımıza bağlı bir insandır. Artıq dediyimiz kimi, Məzahir müəllim bir neçə ildir ki, dost ölkədə məskunlaşıb. Amma Vətəndə, daha dəqiq desək, Azərbaycan efir və ekranında vaxtaşırı onun adını eşitmək olar. Bu, nə ilə bağlıdır? Məsələ burasındadır ki, Məzahir Səmədoğlu həm də istedadlı bəstəkardır. Doğrudur, ö, özünü professional musiqi xadimi deyil, bu sahədə həvəskar bir insan hesab edir. Lakin ortada olan melodiyaları onun maraq göstərdiyi sahəyə necə məsuliyyətlə yanaşdığını sübut edir. Onun auditoriyasının üzvləri daha çox əsgər və zabitlər, vətənpərvər insanlardır. Bu isə heç də təsadüfi deyildir. Məsələ burasındadır ki, Məzahir Səmədoğlunun musiqi yaradıcılığından Vətən və vətənpərvərlik mövzusu qırmızı bir xətt kimi keçir. O, qəhrəman döyüşçülərimiz haqda bir neçə maraqlı musiqi parçaları yazmış, sevdiyi şairlərin sözlərinə melodiyalar bəstələmişdir.

Məzahir Səmədoğlunun musiqi yaradıcılığının diapozonu xeyli genişdir. Amma o, əsasən mahnı yaradıcılığı ilə məşğul olur. Onlarla mahnının müəllifidir. Onun bəstələdiyi melodiyalar bu gün Azərbaycan efir və ekranında səslənməkdədir. Yazdığı mahnılar tanınmış müğənni və xanəndələrdən Gülyaz və Gülyanaq Məmmədova bacılarının, Gülüstan Əliyevanın, Cahangir Qurbanovun, Mətanət İsgəndərlinin, Eldəniz Məmmədovun, habelə Aşıq Zülfiyyənin, Aşıq Azər Fərmayıloğlunun repertuarında möhkəm yer tutmaqdadır.

Yeri gəlmişkən qeyd edək ki, Məzahir Səmədoğlu dəfələrlə Azpbaycan efir və ekranlarında vətənpərvərlim mahnılarının ifası təriqi ilə elan olunmuş mahnı müsabiqələrində iştirak etmiş, qalib olmuş, birinci yerə çıxmış, mükafata layiq görülmüşdür.

Biz Məzahir Səmədoğlunu uzun illərdir ki, tanıyırıq. O, teztez öz doğma vətəninə, doğma elinə baş çəkir. Xalqımızın sevincini öz sevinci, kədərini isə öz kədəri hesab edir.



Məzahir müəllimin dediklərindən: "Mən təəssüf edirəm ki, bizim bir çox soydaşlarımız xarici ölkələrdə yalnız "istehlakşı" kimi tanınır. Bu, zənnimcə düzgün hal deyil. İnsan harada yaşamasından asılı olmayaraq yerli adət-ənənələrə hörmət etməli, yaşadığı yerin qanunlarına tabe olmalı, ünsiyyətdə olduğu xalqın, necə deyərlər, xeyr-şərində yaxından iştirak etməlidirlər. Bax budur, mən uzun illərdir ki, Belarusda yaşayıram. Orada diaspor təşkilatının formalaşmasında az-çox xidmətim var. Amma düşünürəm ki, iş təkcə bununla bitmir. Elə bu səbəbdən də, ölkələrimiz arasında ədəbi, mədəni əlaqələrin daha da möhkəmlənməsinə çalışıram. Bu mənada ölkəmizin mədəniyyət xadimlərinin dost ölkədə tanınması istiqamətində fəaliyyətimizi daha da genişləndirməliyik. Belə hesab edirəm ki, bizim hər birimiz Azərbaycandan kənarda özümüzü bir parça vətən kimi təqdim etməliyik. Bəli, hər birimiz özümüz boyda bir Azərbaycanıq. Belarus bizdən məsafəcə uzaq ölkə olsa da, mənən bizə yaxın məmləkətdir. Burada Azərbaycanı, onun insanlarını sevir və qiymətləndirirlər. Hesab edirəm ki, zaman keçdikcə ölkələrimiz arasında əlaqələr daha yüksək səviyyədə qurulacaq. Bu sahədə mədəniyyətlərin rolu daha önəmli mahiyyət kəsb edir. Belaruslarla bizi birləşdirən mədəni və mənəvi cəhətlər çoxdur. Bu əlaqələrin canlı daşıyıcıları kimi bizim üzərimizə böyük vəzifələr düşür..."

Bu gün Məzahir müəllim ömrünün müdriklik çağını yaşayır. İllər bir-birini sürətlə qovur, biz zamanın axarı ilə keçmişdən gələcəyə doğru addımlayırıq. Amma bəzən bu zaman sanki bir anlığa, ani olaraq dayanır, nəfəs dərir. Daha doğrusu, bu "qısa dayanmalar" vaxtı həmin sürətli və sürəkli zamanın ayrı-ayrı anları musiqi notlarına çevrilir. Məzahir Səmədoğlunun qəlbindən qopan o notlar insanların yaddaşına hopur, ürəklərdə əks-səda verir.

Məzahir müəllimin dediklərindən: "Sivilizasiyalar və mədiyyətlər get-gedə bir-biri ilə qovuşur, təkcə yan-yana deyil, həm də sanki iç-içə yaşayır. Amma orası da var ki, hər xalq, hər millət öz "mədəni müxtariyyətini" qoruyub saxlayır və yaxud qoruyub saxlamalıdır. Biz də öz mədəniyyətimizi hifz etməliyik. Bu gün Belarusun müxtəlif guşələrində dilimizdə danışan insanlara rast gəlirik. Burada qardaş Azərbaycan yazıçılarının kitabları çap olunur, rəssamlarımızın əsərləri sərgilənir. İdmançılarımızın səs-sorağı gəlr. Ekran və efirdə müsiqilərimiz səslənir, rəqqaslarımız öz ustalıqlarını nümayış etdirir. Biz belarus xalqı ilə bütün sahələrdə tərəfdaş, dost və həmrəyik".

Məzahir müəllimlə hər görüş bir yaddaqalan xatirəyə çevrilir. O, dostluğa sədaqətli bir insandır. Və bütün müdrik insanlar kimi, Məzahir Səmədoğlu da dostluğa bir sənət əsəri kimi yanaşır, onu qoruyur, onun dəyərini yüksək qiymətləndirir.

Düzdür, biz dostları onu sıxsıx, tez-tez görə bilmirik. Amma onun melodiyaları bir dostluq körpüsü kimi, daim insanları birbirinə yaxınlaşdırır, könülləri birbirinə qovuşdurur. Elə dostumuzun adı da bizim ürəyimizdə bir melodiya kimi səslənir, etibar və sədaqət melodiyası kimi...

Məzahir Səmədoğlu torpaqlarımızın yağı düşməndən azad olunmasını səbrsizliklə gözləyir. Onun bəstələdiyi mahnıların əzəli və sonu Vətəndir.

**Biz dostumuz Məzahir müəllimə bundan sonra da ilhamlı yaradıcılıq, işlərində uğurlar, möhkəm cansağlığı arzu edirik. Qoy onun bütün arzuları çin olsun.**

**Tofiq Xəlil**
**Firuz MUSTAFA**